## CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA; CƏZA-İCRA HÜQUQU

## CRIMINAL RIGHTS AND CRIMINOLOGY; TRIAL-EXECUTIVE RIGHT

UOT 343.3/.7; UOT 343.13(4/9)

**SAMİRƏ BABAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: samirababayeva@list.ru*

# EVTANAZİYA. CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ TƏHLİL

Evtanaziya nədir? Xeyirxah ölüm, yoxsa özgə həyatına qəsd? Bu sual hələ də dünyanı maraqlandıran məsələlərdən biri olaraq qalır. Dünya ölkələrinin cinayət qanunvericiliyi evtanaziyanı əsasən cinayət tərkibi kimi qəbul edir. Çox az sayda ölkələrin qanunvericiliyində evtanaziya cinayət əməli hesab edilmir.

Evtanaziyaya sözün daha sadə formasında desək, öldürülənin könüllü razılığı və ya xahişi ilə formalaşan və bir insanın başqa bir şəxs tərəfindən öldürülməsinin xüsusiləşmiş forması kimi baxmaq olar. Bir qism ölkələrdə evtanaziya ictimai əxlaqla qəbul edilən bir qətl olduğundan, həmin ölkələrin cinayət qanununda ya ümumiyyətlə dekriminal sayılır, ya da qəsdən adam öldürmənin məsuliyyəti yüngülləşdirilmiş halı kimi nəzərdən keçirilir. Evtanaziya termini müxtəlif mənalarda işlənir: ağır fiziki əzablar keçirən şəxsin ölümünü tezləşdirmək, «artıq» adamları məhv etmək, ölməkdə olanlara qayğı, insana ölmək imkanı vermək və s.

Evtanaziyanın tarixi ilə əlaqədar çox söz demək olar. Bəşər tarixinin müxtəlif dövrlərində, xüsusən də hüququn sırf əxlaq və adət normaları ilə tənzimləndiyi dönəmlərdə evtanaziyanın müəyyən formaları tətbiq olunmuşdur. Antik dövr cəmiyyətlərində bəzi qəbilələr yaşayış yerini dəyişdiyi zaman qoca şəxsləri özləri ilə aparmırdılar. Qədim yunan adətlərinə görə, 60 yaşına çatmış şəxslərin öldürülməsi təcrübəsi qəbul edilirdi. Platon «Dövlət» əsərində yazırdı ki, tibb sağalması mümkün olan, yəni sağlam vücudları müalicə etməyə borcludur, əks halda onun zəif, xəstə insanların ölümünü gecikdirməkdən başqa bir xidməti, faydası olmaz. Sokrat, Platon, Zenon, Seneka kimi mütəfəkkirlər hesab edirdilər ki, sağalmaz xəstələri hətta onların razılığı olmadan belə məhv etmək olar. Onlar yekdilliklə qeyd edirdilər ki, əgər insan zəifdir və cəmiyyətə yükdürsə, həyatını sonlandırmaq onun mənəvi borcu olmalıdır. Lakin Aristotel və xüsusilə də, pifaqorçular özünü öldürmə və ya özünü öldürtməni tamamilə rədd edən mövqelər göstərirdilər.

XI əsr rus yazılı mənbələrinə görə xristianlığa qədərki dövrdə rus xalqında çox qocalmış şəxslərin qohumlar tərəfindən yığışılaraq öldürülməsi ənənəsi mövcud olmuşdur. Bu, normal hal kimi qəbul olunmuş, kütləvi əxlaqla pislənilməmişdir. Xristianlığın qəbulundan sonra isə, bu adət getdikcə aradan qalxmışdır. Yaponiyanın ucqar regionlarında indi də çox qocalmış valideynin özünün razılığı ilə «müqəddəs dağa» aparılması və orada ac-susuz qalaraq həyatını sonlandırması ilə əlaqədar ənənə vardır. Hindistanda sağalmaz xəstənin müalicəsi həkim tərəfindən aparılmaya bilər və bu evtanaziya kimi qiymətləndirilmir. Təməl hind təbabətinə görə ancaq müalicə üsulları tibb ilə müəyyən olunmuş xəstənin müalicə olunması yolveriləndir.

«Evtanaziya» sözü ilk dəfə XVII yüzillikdə F.Beykon tərəfindən işlənib. O, bu sözü «yüngül ölüm» mənasında işlədib. F.Bekon qeyd edirdi: «Həkimin borcu yalnız xəstəni müalicə etmək deyil, həmçinin xəstəliyin gətirdiyi ağrıacılarını azaltmaqdır... və xəstəliyin müalicəsi ilə əlaqədar ümid olmadığı zaman isə qaçılmaz olan ölümü asan etmək üçün tədbirlər görməkdir. Bu evtanaziyadır və əzablar içində olan bir insan üçün ancaq xoşbəxtlik ola bilər» [6].

XIX əsrdə isə bu ifadə «kimisə mərhəmətdən öldürmə» mənasını daşımağa başladı. 1826-cı ildə alman həkimi Karl F.Marks «evtanaziya» terminindən istifadə etdi. O qeyd edirdi: «Evtanaziya əzabverici xəstəliyi olan şəxslərin qaçılmaz ölümünü rahat edən bir prosedurdur». Əslində evtanaziya ideyası qədimdən yaranıb. Lakin Hippokrat dövründən bu günə qədər ənənəvi tibb etikasına belə bir qadağa daxildir: «Mən heç kimə, hətta bunu xahiş edənə belə ölüm gətirə biləcək dərman verə bilmərəm, hətta bunu məsləhət də görə bilmərəm».

Amma son vaxtlar həkimlərdə bu təcrübəyə əl atmaq – xəstənin ölümünü onun istəyi ilə yüngülləşdirmək, tezləşdirmək zərurəti yaranıb, xüsusən də pasiyent bunu xahiş etdikdə. Biz bu tendensiyaya necə yanaşmalıyıq? Köhnəlmiş qadağalardan azad olmaq kimi, yoxsa mənəvi nöqteyi-nəzərdən doğru olmayan təhlükəli presedent kimi? Bu, çox mübahisəli məsələdir, evtanaziya sözü yaranandan bununla bağlı fikir ayrılıqları mövcuddur. Özü də təkcə, tibb alimləri arasında deyil, həm də dindarlar arasında.

Bütün səmavi dinlərdə insan həyatı yaradanın bəxşişi kimi qəbul edildiyindən, onun şəxsin iradəsindən asılı olaraq sonlandırılmasına yol verilmir.

İslam – nə olursa olsun, həyat insana Allah tərəfindən verilmişdir və ondan həyatını almaq hüququ da ona məxsusdur. Öz həyatını sonlandırmaq barədə hər hansı düşüncə belə böyük bir günahdır. Lakin islamda passiv evtanaziyanın qəbulu ilə bağlı fikir söyləmək də mümkündür. İslama görə həyat və ölüm Allahın bəxşişidir. Onun insan tərəfindən nizamlanması günah sayılır. Həyatı süni vasitələrə, aparatlara bağlı sağalmaz xəstənin həyatını davam etdirməsi ilə əlaqədar tədbirlər onun ölümünü yubatmaqla bərabər, bu prosesi daha çətin edir və bu, heç də humanist görünmür.

Musəvilik həmçinin, insanın özü və ya başqaları tərəfindən həyatını sonlandırması cəhdini qəbul etmir və bunu «həyat sənin malınmış kimi davrana bilməzsən» ifadəsinə sığdırır.

Xristianlığa görə – həyatın müqəddəsdir, nə olursa olsun, yaşamaq üçün çapalamalısan.

Buddizm – ölümünü gətirəcək heç bir hadisə və ya prosesə qarışmağa haqqın və hüququn yoxdur, ən pis yaşamı belə qəbullanmalı, ölümü seçməməlisən, yoxsa ölüm sonrası ən pisinə layiq görülərsən.

Yaşamaq insanın ən təbii hüquqlarından birincisidir. Azərbaycan Respublikasının Konstitusiyasının 27-ci maddəsinin 1-ci hissəsinə görə, hər kəsin yaşamaq hüququ vardır [1]. Göründüyü kimi, insanın yaşamaq hüququ vardır, yaşamaq vəzifəsi yox. İnsanın özü tərəfindən həyatın sonlandırılması onun şəxsi seçimi olub, dünyanın heç bir yerində qadağan edilmir. Dini ideologiya əksərən bunu qadağan etsə də, özünü öldürmə hüquqla tənzimlənmir (hətta hüquq sistemi dini istilahlar üzərində qurulan dövlətlərdə belə).

Bir çox ölkələrdə (xüsusən də, mənəvisosial inkişafdan geri ölkələrdə) insanların həyatı könüllü tərk etməsinə icazə verilir. Məsələn: Fələstində könüllü ölməyin çox sadə və çeşidli yolları var ki, hamısına da «sionist işğalçılarına qarşı şəhadət» deyilir: şəhid olmaq istəyən kəs ölümü könüllü seçir, sonra da israillilərə maksimum ziyan vurmaq üçün özünü partladır.

Yaponiyada özünüöldürmə samuray ənənəsinin zəruri tərkib hissəsi kimi ortaya çıxıb. Üstəlik, dərhal başa çatan ölümü və ya canverməni iştirakçılar da müşahidə edirdilər. Yaponiyada «xarakiri» («qarnıcırma») özünəqəsdin bir forması olsa da, bu, həmin xalqın tarixi-mədəni ənənələrinin simvolu hesab

edilir. Bu qəsdin mahiyyətində isə düşmənin əlinə sağ keçməmək və şərəfli ölüm durur.

Qeyd olunan bu ənənələrin hər birində insanın öz iradəsi ilə həyatdan getməsi mümkün hesab olunur. Həmçinin, Azərbaycan Respublikasının cinayət qanununa görə özünü öldürmə həddinə çatdırma meyarları olmadan (CM-in 125-ci maddəsi) intihar dekriminaldır.

1933-cü ildə Almaniyada nasistlər hakimiyyətə gələndən sonra onlar ilk növbədə irsi xəstəliklərin sterilizasiyası haqqında qanun qəbul etdilər. Üçüncü Reyxin «T-4» adlandırılan bu proqramı geniş tətbiq edilməyə başlandı. 1939-cu ildə Hitler monqoloqoid, hidrosefaliya və eybəcərlikdən əziyyət çəkən uşaqların qeydiyyata alınması haqqında fərman verdi və onların 5 min nəfəri evtanaziya (mahiyyətinə uyğun deyildisə də, bu evtanaziya adlanırdı) edildi. Sonradan başqa bir fərmana əsasən, on minlərlə ruhi xəstəliklərə məruz qalan insan evtanaziyaya məruz qaldı. Burada dövlət «artıq yükdən azad olma» siyasəti yeridirdi. İkinci dünya müharibəsi dövründə Almaniyada evtanaziya ilə bağlı qeyd edilən proqrama uyğun olaraq, həbs düşərgələrində insanların öldürülməsi qanuniləşdirildi. Bütün bu sadalanan ölüm aktlarının heç birində xəstəliyə düçar olanların razılığı tələb olunmurdu.

Bütün bu tədbirləri əslində evtanaziya deyil, rəsmi icazəli ölüm adlandırmaq daha doğru olardı. Mahiyyətində ölmək istəyən insanın xahişi və xeyirxahlıq duran evtanaziya tədbirindən fərqli olaraq yuxarıda qeyd olunan hallar cəmiyyətin «artıq yükdən» azad olunması üçün görülən tədbirlər kimi qiymətləndirilə bilər.

Nasist Almaniyasından çox əvvəllər Sparta dövlətində də buna bənzər ənənələr olmuşdur. Belə ki, yenidoğulmuşlar dərhal xüsusi bilikli şəxslər tərəfindən yoxlanılır, fiziki və ya əqli qüsurlu, yaxud xəstə uşaqlar dərhal məhv edilirdi. Xalqın genofondunun daha sağlam fərdlər üzərində qurulması üçün bu yol münasib hesab edilirdi.

XX əsrin 70-80-cı illərində Hollandiyada qanunvericilik və tibbi təşkilatların razılığı ilə xəstənin ölümünü asanlaşdıran dərmanların tətbiq edilməsinə icazə verildi. 1980-cı ildə Papa II İohan Pavel evtanaziyanın tətbiqinin əleyhinə Deklarasiya qəbul etdi. Bu deklarasiya evtanaziyanı yolverilməz akt kimi qəbul edir və yaradanın işinə qarışmaq hesab edirdi.

Avropa ölkələrindən Belçika, Hollandiya, Lüksemburq və İsveçrədə evtanaziya cinayət deyildir. 2001-ci ildə İsveçrənin Milli Soveti evtanaziyanın tətbiqinə icazə verdi. İsveçrədə başqa ölkələrin vətəndaşlarına da «evtanaziya xidməti» göstərilməsinə qanunla yol verilir.

1 fevral 2002-ci ildə isə Hollandiyada könüllü evtanaziyaya, yəni özünü öldürməyə kömək edilməsinə icazə verən qanun qəbul edildi. Bu qanun evtanaziya ilə bağlı pasiyent qarşısına sərt tələblər qoymaqla yanaşı, ilk növbədə, xəstənin öz arzusunun olmasını, yaşamaq ümidinin azlığını, özünün sağlam düşüncəsi ilə qərar qəbul etməsini vacib sayır. Eyni zamanda 12-16 yaşlarda olan şəxslərin valideynlərinin razılığı da tələb edilir.

2002-ci ildə Belçikada da evtanaziya haqqında qanun qəbul edildi.

Bu ölkələrdə hesab edirlər ki, insan əzabının həddi yüksəkdirsə onun həyatdan getmək qərarına heç bir qanun müdaxilə edə bilməz. Sadalanan Avropa ölkələri evtanaziyanı – insanların yaşamaq və ya yaşamamaq qərarlarını insan haqlarının tərkib hissəsi hesab edir.

Lakin tibb elminin yüksək dairələri evtanaziyanın dünya ölkələrində tətbiqinə qarşıdırlar. Onların fikrincə, ağır xəstəliklər insanlıq üçün bəla olsa da tibb elmi üçün yeniliklərin stimuludur. Əgər insanlar ağır xəstəliklər zamanı ölümü seçsələr, bu, tibb elmində yeni kəşflərin sayını azalda, ümumiyyətlə bu sahəyə marağı öldürə bilər.

Amerika Birləşmiş Ştatlarının 3 ştatında-Oreqon, Vaşinqton, Montana ştatlarında evtanaziya haqqında qanun qəbul edilib. Vaxtilə ABŞ-ın Oreqon ştatında erməni əsilli C.Qevorkyan bulvar qəzetlərinin birində belə bir elan vermişdi: «Əgər ağrısız ölmək istəyirsinizsə, mən sizə yüngül ölüm hədiyyə edəcəyəm». O, 130 amerikalını bu yolla öldürüb. Təbii ki, ABŞ-ın həkim ictimaiyyəti C.Qe-

vorkyanın əməllərindən xəbər tutduqdan sonra onu həkimlikdən məhrum edib. Ən dəhşətlisi odur ki, müstəqil araşdırmacılar erməninin evtanaziya yolu ilə öldürdüyü insanların dörddə birinin heç də sağalmaz xəstəliklərdən əziyyət çəkmədiklərini müəyyənləşdiriblər. Belə çıxır ki, C.Qevorkyan xəstəliklərindən məyusluğa düçar olmuş insanların dərdinə əlac tapmaq əvəzinə onları, sadəcə, öldürüb. Uzun sürən məhkəmə prosesi C.Qevorkyanın 25 il azadlıqdan məhrum olunmasıyla yekunlaşıb.

1997-ci ildə ABŞ-ın Oreqon ştatında «Ləyaqətli ölüm» barədə qanunun qəbuluyla, müəyyən edilmiş şərtlər daxilində özünü öldürməyə kömək edilirdi. Həmin şərtlərə pasiyentin yaşının 18-dən yuxarı olması, Oreqon ştatında daimi yaşaması, anlaqlı surətdə qərar qəbul etmək imkanının olması, ölümqabağı xəstəliklə bağlı iztirablarının çox olması, eyni zamanda ölümünə ən azı 6 ay qalması kimi amillər daxil idi. Bundan əlavə, xəstənin bir yazılı və iki şifahi müraciəti olmalı, könüllü dərman qəbul etməli idi. 2003-cü il məruzəsinə görə, həmin ştatda «şəfqətli ölüm»lə 171 hadisə qeydiyyata alınmış, evtanaziya ilə bağlı 67 nəfər dərman qəbul edib ölmüş, 2 pasiyent isə ölüm ayağında olmuşdur. Ümumi müraciət edənlərdən 10 nəfəri isə hələ də yaşayır.

Bu yaxınlarda Böyük Britaniya parlamenti səs çoxluğu ilə evtanaziya ilə bağlı qanun layihəsini qəbul edib. Həmin layihədə göstərilir ki, ölüm ayağında olan xəstə evtanaziya prosesində ölüm dozasında olan dərmanı özü qəbul etməli, hər belə prosesdə iki həkim və Ali Məhkəmənin üzvü iştirak etməlidir. Lakin nəticədə istər İngiltərədə, istərsə də Uelsdə «ölmək hüququ»na təminat verən olmamışdır.

1996-cı ildə Avstraliyanın şimal ərazisində könüllü evtanaziyanın qəbuluna səs verilsə də, 9 aydan sonra Federal Parlament həmin qanunu ləğv etdi.

XX əsrin 90-cı illərində ABŞ-da Kiriş Kordanın rəhbərlik etdiyi kilsə evtanaziyası fəaliyyətə başlamışdı. Bu təşkilatın fəaliyyəti «köhnə, lakin nəzarət olunmayan dünya»da əhalinin qlobal artımının qarşısını almağa yönəlmişdir. Korda dörd prinsip əsasında – suisid, sodomiya, hannibalizim və mayalanma əleyhinə dərmanlardan istifadə etməklə, bu problemin həll edilməsinin mümkün olduğunu göstərmişdir. Özlərini kilsə evtanaziyasının yaradıcısı və davamçıları adlandıran kilsə təlimçiləri aclıq, dilənçilik, müharibə və zorakılıqların olmaması üçün əhalinin artım tempinin azaldılmasında evtanaziyanı əsas prinsip kimi götürmüşlər. Onlara görə, evtanaziya sağalmayan xəstəliklər səbəbindən müalicəsi mümkün olmayan və bu əziyyətdən qurtarmaq üçün pasiyentin öz xahişi ilə ölümünə razılıq verməsidir. Kiriş Kordanın fikrincə, könüllülərin həyatdan getməsi ilahi işdir və kilsə evtanaziyasına daxil olan sektaların üzvləri avtomatik olaraq bu müqəddəs işə cəlb edilməlidir. Bu məqsədlə dünyanın salamat qalması naminə xüsusi hazırlanmış ayinlər icra edilir və şəxsin əmlakı kilsəyə vəsiyyət olunmaqla notarial qaydada qanuni rəsmiləşdirilirdi. Sağlam olmayan ideyalar əsasında qurulan bu təlimim yayılmasının qarşısının alınması üçün dövlət səviyyəsində bir çox addımlar atılmışdır.

MDB ölkələrinin heç birinin qanunvericiliyində evtanaziya yolverilən əməl hesab olunmur. Qonşu Rusiya Federasiyası evtanaziyanı sadə qəsdən adamöldürmənin növü hesab edir və ayrıca tərkib kimi müəyyən etmir (deməli, milli qanunvericiliyimizlə müqayisədə bir neçə dəfə daha sərt formada cəzalandırır).

Göründüyü kimi, evtanaziya institutu bir çox ölkələri əhatə edir və çoxaspektlidir.

Xalis evtanaziya xəstə insanın xahişi ilə həkim tərəfindən onun öldürülməsi prosedurudur. Bu zaman ölmək istəyən şəxsin özü bu aktı həyata keçirmir, bunu digər şəxsə (həkimə) həvalə edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 135-ci maddəsi «Evtanaziya» adlanır [2]. Göstərilən maddədə evtanaziyanın anlayışı qüsurlu müəyyən olunmuşdur. Qeyd edilir ki, evtanaziya – xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə və ya hərəkətlə tezləşdirmə və ya həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırmadır. Bu tərkib milli cinayət qanunumuzda məsuliyyəti

yüngülləşdirici halda adam öldürmənin bir forması hesab olunur. Bu mövzu ətrafında yuxarıda aparılmış təhlillərdən də məlum olduğu kimi, evtanaziya sağalmaz xəstəliyə düçar olmuş xəstənin xahişi əsasında həkimin onu öldürməsi prosedurudur. Ölüm aktı məhz həkim ixtisasına malik şəxslər tərəfindən icra olunmalıdır. Amma cinayət qanunumuzda verilmiş anlayışda xəstənin sağalmaz xəstə olması, cinayətin subyektinin məhz həkim ixtisasına malik olan şəxs olması ilə əlaqədar göstərişlər əks olunmamışdır. Qeyd olunan məqamlar onun məzmununun dərk olunması ilə əlaqədar ciddi kolliziya yaradır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.1-ci maddəsi qəsdən adam öldürmə cinayətinin sadə motivlərini özündə əks etdirir. İstər Azərbaycan Respublikasının cinayət qanununun doktrinal şərhlərində, istər «Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun 12 dekabr 2002-ci il tarixli 3 saylı qərarında, istərsə də «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun 25 iyun 2003-cü il tarixli 4 saylı qərarında qəsdən adam öldürmənin sadə növü şərh olunarkən xəstənin xahişi ilə onun öldürülməsi elementi qəsdən adam öldürmənin mərhəmətlilik niyyətilə cinayətin törədilməsi yüngülləşdirici halının tətbiqini şərtləndirən sadə növü kimi izah edilir [3;4;5]. Yəni, xəstənin xahişi ilə, lakin həkim deyil, digər şəxs tərəfindən törədilən hallarda sadə qəsdən adam öldürmə (CM 120.1) və cinayətin mərhəmətlilik niyyətilə törədilməsi yüngülləşdirici halı (CM 59.1.5) mövcud olur. Evtanaziya tərkibini nəzərdə tutarkən qanunverici, əslində bu əməlin xüsusi subyekt (həkim) tərəfindən törədilməsini nəzərdə tutmuşdur. Çünki, maddənin sanksiyasına nəzər salsaq, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının əlavə cəza olaraq tətbiq olunmasının nəzərdə tutulduğunun görürük. Qanunvericilik texnikası baxımından yanaşsaq, məhz xüsusi subyektli cinayət tərkiblərinin qurulmasında bu məqamın nəzərə alınmasını müşahidə etmək olar. Evtanaziya həmçinin, sivil Avropa ölkələrinin qanunvericiliyi üzrə də həkim ixtisasına məxsus şəxslər tərəfindən icra olunur. Həkim olmayan şəxslər tərəfindən bu əməlin törədilməsi sadə motivlərlə qəsdən adam öldürmə adlana bilər. Kiminsə onu öldürməsini xahiş etməsi, bizə həmin şəxsi öldürməyə əsas verə bilməz. Çünki bu, birinci növbədə sui-istifadə hallarına gətirib çıxara bilər. Cinayət qanunu əməlin cinayət kimi tövsif olunmasında analogiya institutunun tətbiqini rədd edir. Qanunçuluq prinsipi ən vacib prinsiplərdən biri kimi mühüm əhəmiyyət kəsb edir. Qanunun genişləndirici və ya məhdudlaşdırıcı təfsiri hüququ tətbiq edən orqanlar üçün yolverilməzdir. Belə təfsirlər yalnız rəsmi şərh formasında Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən verilə bilər. Təhlil etdiyimiz evtanaziya tərkibi ilə bağlı belə şərhlərin olmadığını nəzərə alaraq (bu tərkibdə məhdudlaşdırıcı təfsirin aparılmasına ehtiyac duyulur), qanunvericilikdə evtanaziyanın anlayışının dəqiqləşdirilməsinə ehtiyac duyuruq. Təklif edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 135-ci maddəsi aşağıda göstərilən redaksiyada yenidən təqdim olunsun:

«Evtanaziya, yəni sağalmaz xəstəliyə düçar olmuş xəstənin yazılı və şifahi xahişi ilə həkim (həkim konsiliumunun rəyinə əsasən) tərəfindən onun ölümünü hər hansı vasitə və ya hərəkətlə tezləşdirmə»

• İki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Sağalmaz xəstəliyə düçar olmuş və huşu özündə olmayan xəstənin yaxın qohumunun (yaxud himayəçisinin) xahişi (yazılı və şifahi) əsasında həkim tərəfindən (həkim konsiliumunun rəyinə əsasən) onun həyatının davam etməsinə kömək edən süni tədbirləri (aparatları) müəyyən tibbi müddətdən sonra dayandırma cinayət sayılmır.

Fikrimizcə, təklif edilən bu anlayış evtanaziyanın məna və məzmununun aydınlaşdırılmasında mühüm əhəmiyyət daşıyır. Anlayışdan göründüyü kimi, passiv evtanaziya qeyddə göstərilən şərtlərə əməl olunmaqla tətbiq olunduğu təqdirdə dekriminal hesab olunmalıdır. Çünki, bu məqam əvvəla kütləvi ictimai şüurla, əxlaqla qəbul olunur, ikincisi, dini ideologiya baxımından yolveriləndir. Əksər dini ideologiyalarda, xüsusən də səmavi dinlərdə xəstənin ölümünü süni tədbirlərlə uzatma nəinki humanist addım sayılır, əksinə xəstə şəxsə əzab vermək kimi qəbul olunur. Digər tərəfdən, təcrübənin araşdırılması nəticəsində məlum olur ki, passiv evtanaziya, yəni yaxın qohumunun (yaxud himayəçisinin) xahişi əsasında həkim tərəfindən (həkim konsiliumunun rəyinə əsasən) xəstənin (huşu özündə olmayan) həyatının davam etməsinə kömək edən süni tədbirləri müəyyən müddətdən sonra dayandırma halları klinikalarda demək olar ki, hər gün baş verir. Bəzən xəstələrdə mərkəzi sinir sisteminin proqressiv pozulması, zədələnməsi nəticəsində huşun itməsi, xarici qıcıqlara qarşı reaksiyasızlıq, get-gedə dərinləşən tənəffüs, qan dövranı və orqanizmin digər həyati vacib funksiyalarının pozulması ilə xarakterizə olunan, kəskin inkişaf edən, ölüm öncəsi geridönəbilən ağır patoloji vəziyyəti mövcud olur ki, tibbdə bu, koma və ya komatoz vəziyyət adlanır [7]. Koma və ya komatoz hal diaqnozu qoyulmuş şəxslərin həyatının davam etməsinə kömək edən süni tədbirlərin bir müddət sonra dayandırılması xəstənin yaxınlarının razılığı ilə həyata keçirilir və evtanaziya hesab olunmur. Cinayət qanununun mövcud redaksiyasına görə isə bu, evtanziyadır. Passiv evtanaziya real praktikada həqiqətən də törədilir, lakin, məhz kütləvi əxlaqla qəbul edilən olduğundan cəzalandırma mərhələsinə gəlib çıxmır. Evtanaziya cinayət tərkibi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 1999-cu ildən daxil edilməsinə baxmayaraq, bir dəfə də olsun bu tərkiblə cinayət işinin başlanılmasına dair fakt yoxdur. Aktiv evtanaziya ümumiyyətlə tətbiq olunmamış, passiv evtanaziya isə tətbiq olunmasına baxmayaraq, cinayət-hüquqi müstəviyə qaldırılmayıb. Bunun səbəblərinin isə yuxarıda qeyd etmişdik.

Bu səbəbdən də, cinayət qanununa verilmiş təklifdə evtanaziyanın passiv formasının dekriminal olmasını təklif edirik.

Fikrimizcə, məsuliyyəti yüngülləşdirici halda qəsdən adam öldürmənin bir forması kimi aktiv evtanaziya dekriminalaşdırıla bilməz. Dünya həkim assossasiyalarının bəyanatlarında da aktiv evtanaziyanın pislənilməsi, bunun tibb elmini tənbəlləşdirən, yeni elmi nailiyyətlərin əldə olunmasını ləngidən səbəbləri qeyd olunur. Üstəlik, aktiv evtanaziyanın – xəstənin xahişi ilə onun ölümünü tezləşdirən vasitələrin, üsulların, dərmanların tətbiqi həkim peşəsinə malik şəxsləri bir növ insan qatili mövqeyinə qoymaq demək olar. Evtanaziya əməlinin kriminal əməl kimi cinayət qanununda göstərilməsi, xüsusən də yuxarıda göstərilən sanksiyalar kontekstində əks olunması həkimlərin bu işdən-aktiv evtanaziyadan çəkinməsini təmin etmiş olar.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. ”Hüquq ədəbiyyatı”nəşriyyatı. Bakı, 2018.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. ”Hüquq ədəbiyyatı”nəşriyyatı. Bakı, 2018.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. Bakı, ”Digesta”nəşriyyatı, 2016.
4. “Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun 12 dekabr 2002-ci il tarixli 3 saylı qərarı.
5. “Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun 25 iyun 2003-cü il tarixli 4 saylı qərarı.
6. https://az.wikipedia.org/wiki/Evtanaziya.
7. https://az.wikipedia.org/wiki/Koma.


***Açar sözlər:*** *passiv evtanaziya, aktiv evtanaziya, sağalmaz xəstəlik, qəsdən adam öldürmə*

**Samira Babayeva**
*Assistant professor of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Law*

## EUTHANASIA. CRIMINAL-LEGAL AND CRIMINOLOGICAL ANALYSIS


### SUMMARY

Article 135 of the Criminal Code of Azerbaijan Republic is called "Evtanaziya". In the above article, the concept of euthanasia is defective. It is noted that euthanasia is the termination of artificial measures that help the patient to accelerate his death by any means or action or to continue his life on the patient's request. This component is considered a form of homicide, while reducing responsibility in our national criminal law. As it is well-known from the above analysis, this is a procedure in which a doctor kills him based on the patient’s request that the disease is incurable. The act of death is committed by doctors. However, in our understanding of criminal law, there is no indication that the patient is a person with an incurable disease and that the subject of the crime is a person who has the qualification of a doctor.


***Key words:*** *passive euthanasia, active euthanasia, incurable disease, deliberate murder*

**Самира Бабаева**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

## ЭВТАНАЗИЯ: УГОЛОВНО-ПРАВОВОЙ И КРИМИНОЛОГИЧЕСКИЙ АНАЛИЗ

### РЕЗЮМЕ

Статья 135 Уголовного кодекса Азербайджанской Республики называется «Эвтаназия». Здесь понятие эвтаназии является дефектным. Отмечается, что эвтаназия - прекращение искусственных мер, которые помогают пациенту ускорить его смерть любым способом или действием или продолжить свою жизнь по просьбе пациента. Этот компонент считается формой убийства, одновременно снижая ответственность в нашем национальном уголовном законодательстве. Как вытекает из приведенного выше анализа, это процедура, при которой врач убивает его на основании запроса пациента о том, что болезнь неизлечима, т.е. смерть совершается со стороны врачей. Однако в нашем понимании уголовного законодательства нет никаких признаков того, что пациент является человеком с неизлечимым заболеванием и то, что субъектом преступления является лицо, имеющее квалификацию врача.

***Ключевые слова:*** *пассивная эвтаназия, активная эвтаназия, неизлечимая болезнь, умышленное убийство*